No: 01 2026
https://doi.org/10.64400/ea26-01-26
ISSN 2224-5529 2224-0829 2223-5124 2222-940X

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNİN ELMİ ƏSƏRLƏR JURNALI

**HÜQUQ VƏ SİYASİ ELMLƏR**

# CİNAYƏT PROSESİNDƏ PROSESSUAL SAZİŞİN TƏTBİQİNİN BƏZİ MƏSƏLƏLƏRİ

**Mətanət ƏSGƏROVA**
Milli Aviasiya Akademiyası, Bakı, Azərbaycan
**Yazışılan müəllif: matanatasgarova@yahoo.com*

**NƏŞR TARİXİ:**
*Qəbul edilmə tarixi: 03.03.2026*
*Nəşr edilmə tarixi: 17.03.2026*

**Keywords:**
prosessual saziş, kompromis, ittiham, müdafiə, məhkəmə nəzarəti, ədalət

**ABSTRACT**
Məqalədə müasir cinayət prosesi çərçivəsində ittiham və müdafiə arasında kompromis forması kimi prosessual sazişin hüquqi təbiəti və onun mümkünlüyü hədləri tədqiq olunur, bu institutun nəzəri əsasları, məqsəd və vəzifələri araşdırılır, həmçinin təqsirsizlik prezumpsiyası, ədalətlilik və tərəflərin bərabərliyi prinsiplərinin pozulması riskləri təhlil edilir. Nəticə etibarilə belə bir qənaətə gəlinir ki, prosessual saziş institutunun inkişafı məhkəmə nəzarətinin gücləndirilməsi, onun tətbiqinin əsasları və prosessual təminatlarının normativ dəqiqləşdirilməsi ilə müşayiət olunmalıdır. Bu, institutun ədalət mühakiməsinin məna və məqsədlərinə zidd istiqamətdə istifadəsinin qarşısını alacaqdır.
Tədqiqatın məqsədi prosessual sazişin hüquqi təbiətini təhlil etmək, onun mümkünlüyü hədlərini müəyyənləşdirmək və cinayət prosesinin effektivliyi ilə insan hüquqlarının müdafiəsi arasında tarazlığı təmin edən hüquqi təminatları göstərməkdən ibarətdir.
Tədqiqatın obyekti: müasir cinayət prosessində ittiham və müdafiə arasında kompromis forması kimi prosessual saziş institutunun hüquqi tənzimlənməsi və tətbiqi mexanizmləri.
Tədqiqatın metodları. Tədqiqat zamanı normativ-hüquqi, müqayisəli-hüquqi, sistemli və analitik metodlardan istifadə olunmuşdur. Müqayisəli təhlil vasitəsilə müxtəlif hüquq sistemlərində prosessual sazişin hüquqi tənzimi, tətbiq şərtləri və nəticələri öyrənilmiş, onların oxşar və fərqli cəhətləri müəyyən edilmişdir.
Tədqiqatın orijinallığı və elmi yeniliyi. Prosessual sazişin hüquqi sərhədləri və məhdudiyyətləri elmi əsaslarla konkret şəkildə müəyyən edilmişdir. Cinayət prosesində ittiham və müdafiə arasında kompromisin tətbiqində məhkəmə nəzarətinin rolunun əhəmiyyəti nəzəri və praktiki aspektdən qiymətləndirilmişdir. Azərbaycan qanunvericiliyində prosessual saziş institutunun tətbiqi ilə bağlı təkliflər irəli sürülmüşdür.

## GİRİŞ

Müasir cinayət prosesində tətbiq edilən müqavilə (razılaşma) formalarından biri olan prosessual saziş (və ya əməkdaşlıq haqqında saziş) ittiham və müdafiə tərəfləri arasında təqsirin etirafı və ədalət mühakiməsinə yardım müqabilində əldə olunan kompromisi ifadə edir.

İnstitut bir sıra ölkələrdə uğurla tətbiq olunur. Məsələn, Ruandada o, Ali Məhkəmə tərəfindən qəbul edilmiş Təcrübi Təlimatlara uyöun olaraq bütün pozuntulara tətbiq edilir [Practice Directions of the President of the Supreme Court n° 002/2023 of 05/09/2023 governing the plea-bargaining procedure (Rwanda)].

Prosessual saziş tərəflərin qarşılıqlı güzəştlərinə əsaslanır, istintaqın və məhkəmə baxışının sürətləndirilməsinə, məhkəmələrin yükünün azaldılmasına, ittiham və müdafiə arasında əməkdaşlığın səmərəliliyinin artırılmasına və s. kömək edir.

Lakin mümkün kompromis ilə cinayət prosesinin təqsirsizlik prezumpsiyası, ədalətlilik, qanunçuluq və tərəflərin bərabərliyi kimi prinsiplərinin pozulması arasındakı sərhədin müəyyən edilməsi bu instututun tətbiqinin hüquqiliyinin əsası kimi çıxış edir.

Prosedurların sadələşdirilməsi, prokurorluğun təsirinin güclənməsi və məhkəmə təcrübəsində sazişlərin rolunun artması şəraitində sazişlərin mümkünlüyünün sərhədləri problemi daha da kəskinləşir. Bu isə prosessual saziş institutunun nəzəri-hüquqi əsaslarının təhlil edilməsini, kompromisin mümkünlüyü, o cümlədən könüllülük meyarlarının müəyyənləşdirilməsini, məhkəmə təcrübəsinin və AİHM standartlarının araşdırılmasını, qanunvericiliyin və məhkəmə nəzarəti mexanizmlərinin təkmilləşdirilməsi üzrə təkliflərin hazırlanmasını tələb edir.

## MATERİAL VƏ METODLAR

Tədqiqatın elmi əsasını cinayət prosessində prosessual saziş institutunun mahiyyəti, hüquqi təbiəti və tətbiq mexanizmlərinə dair beynəlxalq və milli mənbələr təşkil edir. Əsas hüquqi baza kimi Azərbaycan Respublikasının və Rusiya Federasiyasının Cinayət Prosessual Məcəlləsi təhlil edilmişdir.

Məqalədə həmçinin məhkəmə və istintaq təcrübəsi, açıq mənbələrdə yer alan məhkəmə qərarları araşdırılmışdır. Bu materiallar əsasında prosessual sazişin tətbiqində yaranan problemlər və mövcud qanunvericilikdəki boşluqlar müəyyən edilmiş, onların aradan qaldırılması istiqamətində elmi əsaslandırılmış təkliflər irəli sürülmüşdür.

Bundan əlavə, Avropa Şurasının ədalətli məhkəmə araşdırması, AİHM-nin təcrübəsi, cinayət prosesində tərəflərin hüquqlarının təminatı və əməkdaşlıq mexanizmləri ilə bağlı tövsiyə xarakterli sənədlər də tədqiqatın metodoloji bazasına daxil edilmişdir.

## MÜZAKİRƏ

Bu institut ikili mahiyyətə malikdir, həm prosessual aktın və həm də müqavilənin elementlərini birləşdirir, bu da onu ənənəvi prosessual qərarlardan fərqləndirir.

Plea bargaining elə bir prosedur kimi formalaşmışdır ki, burada təqsirləndirilən şəxs…təqsirini etiraf edir, bunun üçün dövlət prokurorunun, zərərçəkmişlərin və əsasən hakimin razılığı tələb olunur, hakim isə sazişdən əvvəl uyğun cəzanı təsdiqləyir [Nakibuule, Gladys Kisekka, 2020, s.2].

"Plea bargaining" təqsirləndirilən şəxsin etirafına cavab olaraq, ona güzəştin tətbiq edilməsini və hansı güzəştin tətbiq edilməsini nəzərdə tutur, məsələn, yüngül maddə ilə ittiham irəli sürülməsi, daha az müddətli həbs cəzasının verilməsi və digər prosessual üstünlüklər və s.

"Plea bargaining" dedikdə məhkəməyəqədər və ya məhkəmə mərhələsində prokuror və müdafiə tərəfi arasında baş verən konkret razılaşma başa düşülür [Albert W. Alschuler,1979, s.3-4].

Kanadada ədalətin danışıqlar masasında əldə edilə biləcəyini nəzərdə tutan təcrübənin tətbiqinə etiraz olaraq "təqsirin etirafı" termininin istifadəsindən uzaqlaşaraq "təqsirin etirafı müzakirələri", "qətnamə müzakirələri", "təqsirin etirafı danışıqları" və "təqsirin etirafı ilə bağlı razılaşmalar" kimi daha neytral ifadələrə üstünlük verilir [Milica Potrebic Piccinato, 2022].

Prosessual saziş təqsirləndirilən şəxsi uzun sürən məhkəmə proseslərindən azad edir. Təqsirləndirilən şəxslər təqsirini etiraf edərək, məhkəməyə getməmək müqabilində daha üstün qiymətləndirdikləri güzəştləri almaq imkanına malikdirlər [Easterbrook F.H., 1992, s.1969].

İnstitutun tətbiqi ilə bağlı əsas problem ittiham və müdafiə arasında kompromisin sərhədlərinin müəyyən edilməsidir. Prosessual saziş tərəflərin mübahisəlilik və dispozitivlik imkanlarını gücləndirsə də, digər tərəfdən obyektiv həqiqət prinsipindən faktiki olaraq imtina edilməsinə gətirib çıxara bilər.

İnstitutun tətbiqi ilə bağlı əsas risklərdən biri təqsirləndirilən şəxsin təqsirini etiraf etməyə məcbur edilməsidir. O, uzun müddət saxlanıldıqda və ya müdafiəçiyə çıxışı məhdud olduqda bu risq daha da artır. İstintaq orqanları təqsirləndirilən şəxsə psixoloji təsir edə bilərlər və ya onu daha yüngül cəza müqabilində təqsirini boynuna almağa istiqamətləndirə bilərlər, öz iradəsi ilə deyil, daha ağır cəza almaq qorxusu ilə saziş bağlaya bilər. Belə vəziyyət AİHK-nın 6-cı maddəsində nəzərdə tutulan ədalətli məhkəmə baxışı prinsipini pozmuş olur. təqsirləndirilən şəxs məsuliyyətdən kənarda qalmasına şərait yaradır. Buna görə də prosessual saziş bağlanmış şəxs digər müttəhimlərə münasibətdə şahid hesab olunur, o, şahid qismində dindirilən zaman ifadə verməkdən imtina etdiyinə, qəsdən yalan ifadə verdiyinə və ya bilə-bilə yalan məlumat verdiyinə görə cinayət məsuliyyəti daşıdığı barədə əvvəlcədən xəbərdar edilməlidir [Кубрикова М.Е.,2013, s.14].

Digər bir risq obyektiv həqiqət prinsipinin pozulması ilə bağlı vəziyyətdir. Prosessual saziş geniş tətbiq edildikdə, bir çox hallarda işin bütün halları aydınlaşdırılmır, sübutlar dərindən təhlil edilmir, proses formallığa çevrilə bilər. Bu isə, xüsusilə də təqsirin aydın olmadığı işlərdə, həqiqətin müəyyən edilməsinin məhdudlaşdırılmasına gətirə bilər.

İnstitutun tətbiqi bir sıra hallarda sosial ədalət prinsipinin pozulmasına gətirə bilər. Belə ki, maddi resursları olan, həmçinin öz hüquqlarını daha yaxşı bilən təqsirləndirilən şəxslər sazişdə bu

xüsusiyyətlərə malik olmayan şəxslərə nisbətən daha əlverişli şərtlər əldə edə bilərlər. Bu isə hüququn tətbiqində ikili standartlar formalaşdırılmasına gətirə bilər.

İnstitutun tətbiqi ilə bağlı digər bir risq hüquqtətbiqedici təcrübənin vahidliyi ilə bağlıdır. Təcrübədə müxtəlif məhkəmələrdə sazişlərin bağlanılması və təsdiq edilməsi şərtləri fərqlənə bilər. Dəqiq məhkəmə təcrübəsinin və təlimatlarının olmaması özbaşınalıq yarada, subyektiv yanaşmanı artıra bilər.

Bir sıra hallarda zərərçəkmiş şəxs saziş bağlanılması prosesinə cəlb edilmir, ancaq o şərtlərlə razı olmaya bilər. Məsələn, tərəf zərərçəkmişə ciddi ziyan vurulmasına baxmayaraq cəzanın yüngülləşdirilməsi ilə bağlı razılığa gələ bilər.

İnstitutun tətbiqi ilə bağlı digər risqlərə məhkəmə nəzarətinin formal olması ( məhkəmə faktiki olaraq sazişi təsdiqləyir, lakin etirafın düzgünlüyünü yoxlamır); təqsirsizlik prezumpsiyasının pozulması (təqsirin etirafı sübutetmənin nəticəsi olmur, "saziş valyutası"na çevrilir) aiddir.

Beynəlxalq standartlar kompromis prosedurların tətbiqini nəzərdə tutur, ancaq buna ədalət və tərəflərin bərabərliyi prinsiplərinin gözlənilməsi şərtilə yol verir.

Avropa İnsan Hüquqları Məhkəməsi (AİHM) prosessual sazişlərin mümkünlüyünü qəbul edir, sazişin könüllülük və şəffaflıq prinsiplərinə uyğun olması, həmçinin prosedura məhkəmə nəzarətinin təmin olunmasının zəruriliyindən çıxış edir [Natsvlishvili and Togonidze v. Georgia (Application no. 9043/05), § 89–97].

Prosessual sazişin üzərində məhkəmə nəzarəti sazişin qanuniliyinin və könüllülüyünün, təqsirləndirilən şəxsin əməkdaşlığının real olub-olmamasının, cəzanın törədilmiş cinayətin ağırlığına uyğunluğunun, təzyiq və ya sübutların saxtalaşdırılması əlamətlərinin olmamasının yoxlanılmasından ibarətdir. Rusiya Federasiyasının CPM-nin 317.7-ci maddəsi bu tələblərlə yanaşı təqsirləndirilən şəxsin istintaqa yardım öhdəliklərini faktiki yerinə yetirməsini yoxlayır.

ABŞ Ədliyyə Nazirliyinin Prokurorlar Ofisi qeyd edir ki, təqsirləndirilən şəxs günahını etiraf edərsə, məhkəmə prosesi keçirilmir, lakin növbəti addım hökm çıxarma iclasına hazırlaşmaqdır [U.S. Department of Justice offices of United States Attorneys, 2026].

Hakim təqsirləndirilən şəxsin ona qarşı irəli sürülmüş ittihamla könüllü razılaşmasını, bu razılaşmaya nə prokurorun, nə də zərərçəkmişin etiraz etmədiyini müəyyən etdikdən sonra məhkəmə istintaqı aparmadan, ittihamın sübut olunmasını həqiqət kimi qəbul edir. Lakin bu həqiqət heç də obyektiv deyil, formal xarakter daşıyır. Belə bir "həqiqətlə" kifayətlənmək həm cinayət məsuliyyətinə cəlb olunan şəxsin qanuni maraqları, həm də ədalətli məhkəmə icraatının prinsipləri baxımından problemli məsələdir [Шадрин, В. С., 2023, s.51].

Prosessual saziş ibtidai istintaq zamanı bağlanıldıqda məhkəmə təqsirləndirilən şəxs barəsində hökmünü əsaslandırarkən cinayət işinin faktiki halları, o cümlədən onun təqsirliliyi ilə bağlı məsələləri araşdırmır. Lakin həmin hökmün əsaslandırılması hüquq sahəsinə aid məsələlərin, yəni əməlin tövsifinə və cəzanın təyin edilməsinə dair məsələlərin həllini əhatə etməlidir [Михайлов А.А., 2013, s.173].

Məhkəmə nəzarəti bu institutun tətbiqi zamanı yarana biləcək əsassız qərarları və sui-istifadəni məhdudlaşdıran əsas mexanizm kimi çıxış edir. Məhkəmə nəzarətin səmərəliliyi daha çox müdafiənin fəallığından asılıdır. Müdafiəçi yalnız təqsirləndirilən şəxsi sazişin nəticələri barədə məlumatlandırmaqla kifayətlənməməli, həm də istintaq orqanlarının mümkün sui-istifadəsinə qarşı çıxmalıdır.

Prosesin sadələşdirilməsi, maraq balansını pozan saziş vasitəsilə ədalətin əvəzlənməsinə yol verməməlidir.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 28 noyabr 2018-ci il tarixli Qərarında göstərilir ki, **m**əhkəmə faktın etiraf edilməsi barədə işdə iştirak edən şəxsin izahatını dərhal əsaslı sübut kimi qəbul edə bilməz. Etiraf hər bir halda prosessual qanunvericiliyə əsasən məhkəmə tərəfindən yoxlanılmalıdır. Aşağıdakı hallar aşkar edilərsə, etirafın sübut kimi qəbul edilməsindən imtina edilməlidir:- faktın etirafı işin həqiqi hallarının gizlədilməsinə yönəldikdə;- faktın etirafı aldatma, zor, hədə təsiri altında baş verdikdə; - faktın etirafı yanılma təsiri nəticəsində baş verdikdə.

İnstitutun təkmilləşdirilməsi ilə bağlı müasir yanaşma həqiqət prinsipini və məhkəmə sisteminə etibarın əsaslarını pozmayan balanslaşdırılmış kompromis modelinin işlənib hazırlanmasını tələb edir.

A.R.Bağırov institutun tətbiqinin əleyhi çıxış edərək, qeyd edir ki, bu institutun tətbiqi…ibtidai istintaq mərhələsində vəzifə səlahiyyətlərindən sui istifadəyə əlavə əsas olduğunu, zərərçəkmişlərin qanuni mənafelərinin pozulmasına, ədalət mühakiməsinin həyata keçirilməsi zamanı aradan qaldırılması mümkün olmayan ziddiyyətlərə və əsassız mürəkkəbliklərə gətirib çıxardığını göstərir [A.R.Bağırov, 2008,s.34].

A.R.Bağırovla tam razılaşırıq ki, bir ölkədə müvəffəqiyyətlə tətbiq edilən institutun başqa bir ölkədə tətbiqi həmişə eyni nəticələrə gətirməyə bilər. Ancaq uzun müddət ərzində tətbiq edilən prosessual saziş institutunun Azərbaycanda tətbiqinin tam mümkünsüzlüyünü iddia etmək də düzgün olmazdı. İnstitutun tətbiqi ilə bağlı institusional və qanunvericlik islahatlarının aparılmasından institutun digər ölkələrdə tətbiqi təcrübəsindən çıxış edərək tətbiqi dəstəklənməlidir. Azərbaycan Respublikasında mediasiyanın artıq müvəffəqiyyətlə tətbiqi, oxşar elementləri olduğuna görə prosessual saziş institutunun da tətbiqinin mümkünlyünə inamlı yanaşmağa imkan verir.

Belə hesab edirik ki, "plea bargaining"i tamamilə ləğv etmək mümkün deyil, lakin onu dəyişmək mümkündür [William F. McDonald, 1985, s.5].

İnstitutun uğurlu tətbiqi vəkillərin nüfuzunun artmasına, təqsirləndirilən şəxslərin müdafiəsi ilə bağlı son məqsədlərə nail olunmasına kömək edir. Ən narahatedici məqam isə odur ki, bu vəkillərin fəaliyyəti üzərində demək olar ki, heç bir real nəzarət mexanizmi yoxdur [Stephanos Bibas,2004, s.2545]. Müəlliflə tam razılaşmayaraq, qeyd etmək istərdik ki, müdafiəçinin fəaliyyətində, o cümlədən prosessual saziş zamanı yol verdiyi nöqsanlara görə inzibatı məsuliyyəti və ya cinayət məsuliyyəti deçək olar ki, bütün dövlətlərin qanunvericiliklərində nəzərdə tutulmuşdur.

## NƏTİCƏ VƏ TƏKLİFLƏR

Azərbaycan Respublikasında prosessual saziş institutu qanunvericilik səviyyəsində təsbit edilməmişdir. Lakin onun bəzi elementlərinin tətbiqini qeyd etmək olar. Belə ki, Azərbaycan Respublikasının CPM-nə uyğun olaraq təqsirini könüllü boynuna alma, o cümlədən törədilmiş cinayəti etiraf etməsi təqsirləndirilən şəxsin hüququdur, lakin CPM-nin 126.6-cı maddəsinə əsasən bu etiraf yalnız iş üzrə bütün sübutların məcmusu ilə təsdiq edildiyi halda ona qarşı ittihamın əsası kimi qəbul edilə bilər. Azərbaycan qanunvericiliyində etiraf təqsirləndirilən şəxslə prosessual saziş bağlanılması üçün kompromisin əsası kimi çıxış etmir.

Cinayət Məcəlləsinin 59-cu maddəsi cəzanı yüngülləşdirən hallar içərisində şəxsin təqsirini könüllü gəlib boynuna almasını, barışıq əldə edilməsini və s. qeyd edir. Qanunvericilik birbaşa nəzərdə tutmasa da, təcrübədə formalaşmış istintaq və məhkəmə təcrübəsindən çıxış edərək, zərərçəkmişlə təqsirləndirilən şəxslərin razılığa gəlməsi, yəni barışması və onun cəza təyininə, bəzi hallarda cəzanın çəkilməsindən azadetməyə təsiri mümkündür.

Cinayət Məcəlləsinin 72, 73, 73-1 və 73-2-ci maddələri səmimi peşmanlıq və zərərçəkmiş şəxslə barışma hallarında, dövlət büdcəsinə müəyyən məbləğ ödənilməklə cinayət məsuliyyətinin aradan qaldırılmasına yol verir. Ancaq bu halları prosessual saziş adlandırmaq düzgün olmazdı. Çünki bu hallarda təqsirləndirilən şəxs və ittiham arasında müqavilə bağlanılmır, həmçinin məhkəməyədək icraatda belə azad etmə məhkəmə nəzarətindən kənarda qalır.

Mediasiya haqqında Azərbaycan Respublikası Qanunu cinayət işlərinə tətbiq edilmir. Avropa Şurası Nazirlər Komitəsinin 1999-cu il R (99) 19 saylı Tövsiyəsində qeyd olunur ki, mediasiya nəticəsində əldə edilmiş razılaşmanın mövcudluğu səbəbindən cinayət işinə xitam verilməsi məhkəmə aktının hüquqi qüvvəsinə malik olmalıdır [Appendix to Recommendation No. R (99) 19 of the Committee of Ministers, 1999,p.17].

Azərbaycan təcrübəsində cinayət işləri üzrə mediasiyanın tətbiqi barədə məlumatlara da rast gəlinir. Belə ki, Huquq.az saytının məlumatına əsasən, Bakı şəhəri Səbail Rayon Məhkəməsində məhkumun azadlığın məhdudlaşdırılması cəzasının çəkilməmiş hissəsindən vaxtında əvvəl azad olunması ilə əlaqədar Bakı Şəhər Probasiya İdarəsinin təqdimatına baxılaraq təqdimatı təmin etmişdir. Məhkəmə mübahisənin mediatorun vasitəçiliyi ilə barışıq sazişi bağlandığını və

zərərçəkmiş şəxsə dəymiş ziyanın tam ödənilməsini nəzərə alaraq məhkumun azadlığın məhdudlaşdırılması cəzasının çəkilməmiş hissəsindən vaxtında əvvəl azad olunmasına dair qərar qəbul etmişdir [Huquq.az (12 may2025)]. Bu cinayət işləri üzrə mediasiyadır və fikrimizcə prosessual saziş deyildir, çünki prosessual saziş təqsirləndirilən şəxs və ittiham arasında bağlanılır, məhkəmə tərəfindən təsdiq olunur. Əslində cinayət işləri üzrə mediasiyanın aparılmasını prosessual sazişin tətbiq edilməsi üçün bir addım, təcrübə hesab etmək olar. Bəzi müəlliflər məhkəmə mediasiyasının ağırlığından asılı olmayaraq bütün cinayətlərə tətbiqinin mümkünlüyündən çıxış edirlər və hesab edirlər ki, bu prosesin qərarları məcburi olmadığı üçün fikrimizcə, xüsusi tənzimləməyə ehtiyac duyulmur [Qəfərov, M.S., Kişiyeva, A.Z.,2019, s.52-54]. Müəlliflərlə razılaşmayaraq hesab edirik ki, bu prosesin tənzimlənməməsi sui-istifadə hallarının artmasına gətirə bilər.

Prosessual saziş institutunun Azərbaycanda tətbiqi CPM-ə bu institutun daxil edilməsini, prosessual sazişin təqsirləndirilənin könüllülüyü və məlumatlılığı; təzyiq və ya qanunsuz üstünlüklərin vəd olunmaması; istintaq orqanları ilə faktiki əməkdaşlığın mövcudluğu kimi mümkünlük meyarlarının müəyyən edilməsini, müstəntiqin və ya prokurorun saziş üzrə aparılan danışıqları protokolda və ya digər sənəddə qeyd etmə öhdəliyinin müəyyən edilməsini tələb edir.

Məhkəmənin sazişi təsdiqləmək səlahiyyətləri genişləndirilməlidir, məhkəmə yalnız formal şərtlərin mövcudluğunu yoxlamamalı, faktiki halları da araşdırmalıdır, şübhə yarandıqda, məhkəmə tərəfləri çağırmalı və könüllülüyün təmin olunması ilə bağlı əlavə araşdırma aparmalıdır, həmçinin məhkəmə sazişin təsdiq edilməsi və ya təsdiq edilməsinin rədd edilməsi barədə qərarını əsaslandırmalıdır.

Təqsirləndirilən şəxsə sazişin nəticələrinin yazılı şəkildə izah edilməsi proseduru, prosessual sazişin bağlanmasında müdafiəçinin iştirakının məcburiliyi, saziş təklif edilərkən proses iştirakçılarına təzyiq göstərən vəzifəli şəxslər üçün məsuliyyət, s**azişin bağlanması üzrə danışıqların məcburi audio və ya video yazısının aparılması, danışıqlar protokolunun iş materiallarına əlavə edilməsi təmin olunmalıdır.** Həmçinin saziş nəticəsində mümkün olan yüngülləşdirilmiş cəza növləri və sərhədləri dəqiqləşdirilməlidir. Təqsirləndirilən şəxsin əməkdaşlığının "əhəmiyyətliliyi" üçün kriteriyalar da hazırlamalıdır, məsələn, ağır cinayətin açılmasına yardım, əmlakın qaytarılması, iştirakçıların ifşa olunması və s.

## ƏDƏBİYYATLAR


1. Azərbaycan Respublikasının Cinayət Prosessual Məcəlləsi. URL: https://e-qanun.az/framework/46950
2. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi. URL: https://e-qanun.az/framework/46947
3. Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi Plenumunun C.Əzimovun şikayəti üzrə Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki Kollegiyasının 2 aprel 2018-ci il tarixli qərarının Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına uyğunluğunun yoxlanılmasına dair 28 noyabr 2018-ci il Qərarı. URL: https://constcourt.gov.az/az/decision/396
4. Albert W. Alschuler (1979). Plea Bargaining and Its History. Columbia Law Review, Vol. 79,NO. I,1-43. https://chicagounbound.uchicago.edu/cgi/viewcontent.cgi?article=2005&context=journal_articles
5. Appendix to Recommendation No. R (99) 19 of the Committee of Ministers to member States concerning mediation in penal matters (Adopted by the Committee of Ministers on 15 September 1999 at the 679th meeting of the Ministers' Deputies). URL: https://rm.coe.int/1680706970
6. Bağırov, A.R. (2008) Təqsirin etirafı əqdi (plea bargaining) və onun Azərbaycanda tətbiqi məsələləri ilə bağlı Konsepsiya sənədi. Bakı. URL: https://antikorrupsiya.gov.az/storage/postFile/Konsepsiya%20Plea%20barganing_17-05-2023_19-28-47.pdf

7. Easterbrook, F.H. (June 1992). Plea Bargaining as compromise. Yale Law Journal, Vol.101, Issue 8, 1969-1978.
8. Hüquq.az (12 may 2025). Məhkəmə ilk dəfə cinayət işləri üzrə mediasiya yolu ilə barışıq sazişi əsasında şəxsi çəkilməmiş cəzadan azad etdi. URL: https://www.e-huquq.az/az/news/mehkeme/100881.html
9. İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Avropa Konvensiyası.URL: https://e-qanun.az/framework/1405
10. Кубрикова, М.Е. (2013). Актуальные вопросы института досудебного соглашения о сотрудничестве. Автореферат диссертации на соискание ученой степени кандидата юридических наук. Южно-Уральский государственный университет.
11. Qəfərov, M.S., Kişiyeva, A.Z. (2019) "Mediasiya" institutunun cinayət prosesində tətbiqi haqqında mülahizələr. Qanun jurnalı,07 (297),49-56.
12. Михайлов, А.А. (2013). Приговор в отношении подсудимого,с которым заключено досудебное соглашение о сотрудничестве. Отв. ред. М.К. Свиридов, Ю.К. Якимович; под ред. О.И. Андреевой, И.В. Чадновой, Правовые проблемы укрепления российской государственности: Сб. статей. Ч. 59 (с. 168-173). Изд-во Том. ун-та.
13. Milica Potrebic Piccinato (2022-08-26). Plea bargaining. URL: https://www.justice.gc.ca/eng/rp-pr/csj-sjc/ilp-pji/pb-rpc/toc-tdm.html
14. Nakibuule, Gladys Kisekka (2020). Plea bargaining as a human rights question. Cogent Social Sciences, Vol. 6, No. 1. URL: https://doi.org/10.1080/23311886.2020.1818935Page 2 of 29
15. Natsvlishvili and Togonidze v. Georgia (Application no. 9043/05). JUDGMENT 29 April 2014. URL: https://hudoc.echr.coe.int/eng#{%22itemid%22:[%22001-142672%22]}
16. Уголовно-процессуальный кодекс Российской Федерации. URL: https://www.consultant.ru/document/cons_doc_LAW_34481/
17. Шадрин, В. С. (2023) Актуальные проблемы доказывания по уголовным делам с досудебным соглашением о сотрудничестве. Юридический вестник Самарского университета, Т. 9, No 3, 49–55.
18. Plea Bargaining. Steps in the Federal Criminal Process. U.S. Department of Justice offices of United States Attorneys. URL: https://www.justice.gov/usao/justice-101/pleabargaining
19. Practice Directions of the President of the Supreme Court n° 002/2023 of 05/09/2023 governing the plea-bargaining procedure (Rwanda). URL: https://www.judiciary.gov.rw/alternatives-to-trial/plea-bargaining-procedure
20. Stephanos, Bibas (June 2004). Plea bargaining outside the shadow of trial. Harvard Law reviewer, Vol.117,№ 8, 2463-2547.URL: https://scholarship.law.upenn.edu/faculty_scholarship/924/
21. William, F. McDonald (July 1985). Plea Bargaining: Critical Issues and Common Practices. U.S. Department of Justice National Institute of justice. Golden Gate University School of Law. URL: https://digitalcommons.law.ggu.edu/nij-ojp/31/

## SUMMARY

## SOME İSSUES OF THE APPLİCATİON OF THE PLEA BARGAİNİNG İN CRIMINAL PROCEEDINGS

**Matanat Asgarova**

The article examines the legal nature and limits of admissibility of the procedural agreement (plea bargaining) as a form of compromise between the prosecution and the defense in modern criminal proceedings, theoretical foundations of this institution, its goals and objectives are considered, and the risks of violating the principles of the presumption of innocence, fairness, and

equality of the parties are analyzed. It is concluded that the development of the institution of the procedural agreement should be accompanied by strengthening judicial control and by normative clarification of the grounds and procedural safeguards that exclude its use to the detriment of the interests of justice.

**The purpose** of this article is to analyze the legal nature of the procedural agreement, to identify its limits of admissibility, and to determine the guarantees that ensure a balance between the effectiveness of criminal proceedings and the protection of individual rights.

**Object of the study:** the legal regulation and application mechanisms of the procedural agreement as a form of compromise between the prosecution and the defense in modern criminal proceedings.

**Research methods.** The study employed normative-legal, comparative-legal, systemic, and analytical methods. Through comparative analysis, the legal regulation, conditions of application, and consequences of procedural agreements in various legal systems were examined, and their similarities and distinctive features were identified.

**Originality and scientific novelty of the study.** The legal boundaries and limitations of the procedural agreement have been specifically determined on a scientific basis. The importance of judicial control in the application of compromise between the prosecution and the defense in criminal proceedings has been evaluated from both theoretical and practical perspectives. Recommendations for the application of the procedural agreement institution in Azerbaijani legislation have been proposed.

**Keywords:** *procedural agreement, plea bargaining, compromise, prosecution, defense, judicial control, justice*

## АННОТАЦИЯ

## НЕКОТОРЫЕ ВОПРОСЫ ПРИМЕНЕНИЯ ПРОЦЕССУАЛЬНОГО СОГЛАШЕНИЯ

**Матанат Аскерова**

В статье исследуется правовая природа и пределы допустимости процессуального соглашения как формы компромисса между обвинением и защитой в современном уголовном судопроизводстве, анализируются риски нарушения принципов презумпции невиновности, справедливости и состязательности сторон. Делается вывод о том, что развитие института процессуального соглашения должно сопровождаться усилением судебного контроля, нормативным уточнением оснований и процедурных гарантий, исключающих его использование в ущерб интересам правосудия.

**Целью** настоящей статьи является анализ правовой природы процессуального соглашения, выявление его пределов допустимости и определение гарантий, обеспечивающих баланс между эффективностью уголовного судопроизводства и защитой прав личности.

**Объект исследования**: правовое регулирование и механизмы применения института процессуального соглашения как формы компромисса между обвинением и защитой в современном уголовном судопроизводстве.

**Методы исследования.** В ходе исследования были использованы нормативно-правовой, сравнительно-правовой, системный и аналитический методы. Посредством сравнительного анализа были изучены правовое регулирование, условия применения и последствия процессуального соглашения в различных правовых системах, а также выявлены их сходные и отличительные черты.

**Оригинальность и научная новизна исследования.** Правовые границы и ограничения процессуального соглашения определены на научной основе в конкретной форме. Роль судебного контроля при применении компромисса между обвинением и защитой в уголовном процессе оценена с теоретической и практической точек зрения. Предложены рекомендации по применению института процессуального соглашения в законодательстве Азербайджана.

**Ключевые слова:** *процессуальное соглашение, компромисс, обвинение, защита, судебный контроль, справедливость*